AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# AL-FARABI'S CONCEPT OF THE IDEAL LEADER: THE PROPHET-PHILOSOPHER MODEL

**Aghazahir Ilyasli**[1]

**UDC:** 1(091)(5−15):321.01:177.9
**LBC:** 87.3(5):66.01
**HoS:** 148
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.285-292

**Keywords:**

Al-Farabi,
Prophet-philosopher,
Virtuous city,
Wisdom,
Justice,
Islamic philosophy

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Political Philosophy

## ABSTRACT

This article comprehensively analyzes the concept of the "ideal ruler" developed by one of the founders of Islamic philosophical heritage, Abu Nasr al-Farabi. According to al-Farabi, the ultimate goal of society is for human beings to achieve supreme happiness (as-sa'āda al-quṣwā), which can only be realized under the leadership of a ruler endowed with wisdom, knowledge, and justice. The "prophet-philosopher" model proposed by al-Farabi represents both a continuation of Plato's "philosopher-king" concept and a new interpretation enriched with Islamic moral and metaphysical values. The article systematically examines the epistemological harmony established by al-Farabi between reason and revelation, as well as the intellectual, ethical, and spiritual qualities of the ruler. Al-Farabi's conception of the ideal ruler is grounded both in rational knowledge and in divine wisdom. It emphasizes that within the concept of the virtuous city, the ruler plays a decisive role: he is not merely a governing authority, but also the principal pillar safeguarding the moral unity of society and upholding the principle of justice. The study concludes that al-Farabi's conception of the ideal ruler retains its contemporary relevance, demonstrating significant correspondence with modern ethical and transformational leadership theories.

[1] Master's student in History of Philosophy, Baku State University; Baku, Azerbaijan
E-mail: aghailyas9@gmail.com
https://orcid.org/0009-0004-4181-6433
**To cite this article:** Ilyasli, A. [2026]. Al-Farabi's Concept of the Ideal Leader: The Prophet-Philosopher Model. *History of Science journal*, *7*(1), pp.285-292.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.285-292

***Article history:***
*Received: 31.10.2025*
*Revised: 01.12.2025*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ƏL-FARABİNİN İDEAL RƏHBƏR ANLAYIŞI: PEYĞƏMBƏR-FİLOSOF MODELİ

**Ağazahir İlyaslı**[1]

**UOT:** 1(091)(5−15):321.01:177.9
**KBT:** 87.3(5):66.01
**HoS:** 148
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.285-292

**Açar sözlər:**

Əl-Farabi,
Peyğəmbər-filosof,
Fəzilətli şəhər,
Hikmət,
Ədalət,
İslam fəlsəfəsi

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Siyasi Fəlsəfə

## ANNOTASİYA

Bu məqalədə İslam fəlsəfi irsinin banilərindən biri olan Əbu Nəsr əl-Farabinin "ideal rəhbər" anlayışı hərtərəfli şəkildə təhlil olunur. Əl-Farabi cəmiyyətin məqsədini insanın xoşbəxtliyə (əs-saadətül-qusva) çatması kimi müəyyən edir və bu məqsədin reallaşmasını yalnız hikmət, elm və ədalət sahibi rəhbərin fəaliyyəti ilə mümkün hesab edir. Onun irəli sürdüyü "peyğəmbər-filosof" modeli həm Platonun "filosof-kral" konsepsiyasının davamı, həm də İslam mədəni-fəlsəfi dəyərləri ilə zənginləşdirilmiş yeni bir yanaşmadır. Məqalədə Farabinin ağıl və vəhy arasında qurduğu epistemoloji harmoniya, rəhbərin intellektual, etik və mənəvi keyfiyyətləri sistemli şəkildə araşdırılır. Əl-Farabinin ideal rəhbər obrazı həm rasional biliyə, həm də ilahi hikmətə söykənir. Rəhbərin fəzilətli şəhər konsepsiyasında həlledici rol oynadığı, onun yalnız idarə edən şəxs deyil, həm də cəmiyyətin mənəvi birliyini və ədalət prinsipini qoruyan əsas dayağı olduğu vurğulanır. Nəticədə göstərilir ki, Farabinin ideal rəhbər anlayışı müasir etik və transformasional liderlik nəzəriyyələri ilə uyğunluq təşkil edərək aktuallığını qoruyub saxlayır.

[1] Fəlsəfə tarixi üzrə magistrant, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: aghailyas9@gmail.com
https://orcid.org/0009-0004-4181-6433

**Məqaləyə istinad:** İlyaslı, A. [2026]. Əl-Farabinin İdeal Rəhbər Anlayışı: Peyğəmbər-Filosof Modeli. *History of Science jurnalı*, *7*(1), səh.285-292.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.285-292

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 31.10.2025*
*Yenidən baxılıb: 01.12.2025*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ПОНИМАНИЕ ИДЕАЛЬНОГО ПРАВИТЕЛЯ У АЛЬ-ФАРАБИ: МОДЕЛЬ ПРОРОКА-ФИЛОСОФА

**Агазахир Ильяслы**[1]

**УДК:** 1(091)(5–15):321.01:177.9
**ББК:** 87.3(5):66.01
**HoS:** 148
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.285-292

**Ключевые слова:**

Аль-Фараби,
Пророк-философ,
Добродетельный город,
Мудрость,
Справедливость,
Исламская философия

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Политическая философия

## АННОТАЦИЯ

В данной статье всесторонне анализируется концепция «идеального правителя», разработанная одним из основоположников исламской философской мысли — Абу Насром аль-Фараби. По мнению аль-Фараби, высшая цель общества состоит в достижении человеком истинного счастья (ас-са‘ада аль-кусва), что возможно лишь под руководством правителя, обладающего мудростью, знанием и справедливостью. Предложенная им модель «пророк-философ» является продолжением платоновской идеи «философа-царя» и одновременно представляет собой новое толкование, обогащённое исламскими нравственными и метафизическими ценностями. В статье системно исследуются эпистемологическая гармония, установленная аль-Фараби между разумом и откровением, а также интеллектуальные, этические и духовные качества руководителя. Идеальный образ руководителя у аль-Фараби основывается как на рациональном знании, так и на божественной мудрости. Подчёркивается, что в концепции добродетельного города руководитель играет решающую роль: он выступает не только как управляющее лицо, но и как основная опора общества, обеспечивающая его духовное единство и сохранение принципа справедливости. В результате делается вывод о том, что концепция идеального руководителя у аль-Фараби сохраняет свою актуальность, обнаруживая соответствие современным этическим и трансформационным теориям лидерства.

---

[1] Магистрант по специальности история философии, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: aghailyas9@gmail.com
https://orcid.org/0009-0004-4181-6433

**Цитировать статью:** Ильяслы, А. [2026]. Понимание идеального правителя у аль-Фараби: модель пророка-философа. *Журнал History of Science*, *7*(1), с.285-292.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.285-292

***История статьи:***
*Поступила: 31.10.2025*
*Переработана: 01.12.2025*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Əbu Nəsr əl-Farabi İslam intellektual ənənəsinin formalaşmasında fundamental rol oynayan mütəfəkkirlərdən biridir. O, həm Şərq fəlsəfəsinin rasional yönünün inkişafında, həm də yunan fəlsəfi irsinin İslam düşüncəsi ilə inteqrasiyasında aparıcı fiqur kimi çıxış etmişdir. Farabi Aristotel və Platon kimi antik filosofların ideyalarını yalnız tərcümə və şərh etməklə kifayətlənməmiş, onları İslamın teoloji və etik prinsipləri ilə uyğunlaşdıraraq yeni sintez yaratmışdır. Qərb tədqiqatçısı D. Qutasın qeyd etdiyi kimi, Farabinin fəlsəfi sistemi qədim yunan məntiqi rasionalizmi ilə İslam ilahiyyatının məqsədyönlü harmoniyasını təmin edən nadir nümunələrdən biridir [Gutas, 1998, s.41].

Farabinin insan və cəmiyyət haqqında təsəvvürləri onun sosial-fəlsəfi konsepsiyasının özəyini təşkil edir. O, Aristotelin "zoon politikon" – insanın təbiətcə siyasi/ictimai varlıq olması – anlayışını inkişaf etdirərək vurğulayır ki, insanın kamillik potensialı yalnız sosial mühitdə reallaşa bilər. Farabi yazır ki, "insan təbiətcə ictimai varlıqdır; təkbaşına kamilliyə nail ola bilməz" [Əl-Farabi, 1995, s.43]. Bu müddəa onun cəmiyyətin mahiyyəti haqqında düşüncələrinin mərkəzində dayanır və insanın ontoloji məqsədinin xoşbəxtliyə (saadət) çatmaq olduğunu əsaslandırır. Farabi üçün xoşbəxtlik yalnız fərdi emosional hal deyil, intellektual və mənəvi mükəmməlliyin ən ali dərəcəsidir.

Farabinin bu yanaşması onun ən mühüm əsərlərindən biri olan "Əl-Mədinətül-Fazilə" nin fəlsəfi karkasını müəyyənləşdirir. Bu əsərdə təsvir olunan ideal cəmiyyət modeli Platonun "filosof-kral" konsepsiyası ilə açıq paralellər təşkil edir. Lakin Farabi həmin modeli sıradan transpozisiya etməmiş, əksinə, İslam kosmologiyası, peyğəmbərlik nəzəriyyəsi və əxlaqi dəyərlərlə zənginləşdirərək yeni bir anlayış – "peyğəmbər-filosof" tipini formalaşdırmışdır. Seyyid H. Nasrın qeyd etdiyi kimi, Farabinin bu modeli Platonun sırf rasional dövlət konsepsiyasını aşaraq teoloji və mənəvi komponentləri də əhatə edir [Nasr, 2006, s.85].

Farabinin ideal rəhbər konsepsiyası xüsusi diqqətə layiqdir. Onun sistemində rəhbər yalnız inzibati hakimiyyət sahibi deyil; o, həm də bilik, hikmət və mənəviyyatın daşıyıcısıdır. Belə rəhbər cəmiyyətin yalnız siyasi idarəçiliyini deyil, həm də mənəvi istiqamətlənməsini təmin edir. Farabiyə görə, rəhbərlik missiyasının mahiyyəti cəmiyyəti maddi inkişafdan daha çox, intellektual və əxlaqi kamilliyə yönəltməkdir. Bu yanaşma müasir dövrdə sosial idarəetmə nəzəriyyəsi ilə müqayisə edildikdə, liderlik institutunun etik əsaslarını dərinləşdirən mühüm elmi konsepsiya kimi çıxış edir [Cəfərov, 2019, s.59].

Ümumilikdə, Farabinin sosial-fəlsəfi sistemi göstərir ki, cəmiyyətin "fəzilətli şəhər" formasına yüksəlməsi yalnız struktur və hüquqi təşkilatlanma deyil, həm də mənəvi və intellektual yetkinliyin təmin olunması ilə mümkündür. Onun baxışları həm İslam siyasi düşüncəsinin inkişafına, həm də orta əsrlər fəlsəfi ənənəsinin formalaşmasına dərin təsir göstərərək sonrakı dövrdə ibn Sina, ibn Rüşd və digər böyük filosofların nəzəriyyələri üçün zəmin yaratmışdır.

## 2.İnsan və dövlət problemi

Əbu Nəsr əl-Farabi insanın varlıq məqsədini "əs-saadə" – yəni xoşbəxtlik kateqoriyası ilə müəyyənləşdirərək, bu anlayışı onun fəlsəfi sisteminin mərkəzinə yerləşdirir. Farabiyə görə, xoşbəxtlik sadəcə psixoloji rifah halı deyil, intellektual və mənəvi kamilliyin ən yüksək mərhələsidir. O, vurğulayır ki, insan bu kamillik səviyyəsinə ancaq sosial birlik daxilində çata bilər; çünki insan təbiət etibarilə nə tam müstəqildir, nə də öz qabiliyyətlərini təklikdə inkişaf etdirməyə qadir varlıqdır [Əl-Farabi, 1995, s.44]. Bu müddəa Aristotelin "insan ictimai-siyasi varlıqdır" prinsipinin İslam fəlsəfəsi daxilində inkişaf etdirilmiş forması kimi görünür.

Farabinin fikrində sosial əməkdaşlıq insanın əqli potensialının reallaşmasının başlıca şərtidir. İnsanlar bir-birlərinin bilik və bacarıqlarına ehtiyac duyduqları üçün qarşılıqlı

fəaliyyətə girir və bunun nəticəsində ilkin sosial struktur – mədinə (şəhər) formalaşır. Şəhərin yaranması beləliklə, sırf təsadüfi və ya utilitar hadisə deyil; o, insanın təbii ehtiyaclarından doğan, eyni zamanda onun mənəvi yüksəlişinə xidmət edən sosial varlıq formasıdır.

Bu kontekstdə dövlətin mahiyyəti də yalnız maddi ehtiyacların təmininə yönəlmiş mexanizm kimi deyil, insanın ali məqsədi olan mənəvi kamilliyə çatdıran bir struktur kimi müəyyənləşdirilir. Nasrın qeyd etdiyi kimi, Farabi dövlətin əsas funksiyasını "xoşbəxtliyə aparan yolları açmaq" kimi təsvir edir və ona dərin etik-mənəvi məna yükləyir [Nasr, 2006, s.87]. Bu səbəbdən, Farabinin dövlət modeli həm siyasi idarəetmə, həm də mənəvi rəhbərlik funksiyalarını eyni anda daşıyan kompleks sistem kimi təhlil edilir.

Əl-Farabi dövlətin idarəetmə mexanizmini insan bədəninin fəaliyyət prinsipi ilə müqayisə edərək simvolik və analoji izah təqdim edir: "Rəhbər baş kimidir, digər üzvlər onun göstərişlərinə tabe olur" [Əl-Farabi, 1995, s.56]. Bu bənzətmə vasitəsilə Farabi göstərir ki, rəhbər yalnız idarə edən şəxs deyil, həm də bütöv sistemin harmoniyasını qoruyan mərkəzi funksiyaya malikdir. Rəhbərin yoxluğu və ya onun əxlaqi-rasional funksiyasının zədələnməsi dövlətin bütövlüyünü pozur və cəmiyyətin normal fəaliyyətini mümkünsüz edir. Bu analoji model həm də Farabinin siyasi düşüncəsində iyerarxiyanın və funksional əmək bölgüsünün nə qədər sistemli şəkildə qurulduğunu göstərir.

Farabi dövlətləri dörd əsas kateqoriyaya bölür: fəzilətli (əl-mədinətül-fazilə), cahil (əl-mədinətül-cahilə), azğın (əl-mədinətül-dalle) və fasiq (əl-mədinətül-fasiqə). Bu təsnifat sırf siyasi strukturlara deyil, ilk növbədə rəhbərin və toplumun əxlaqi-intellektual səviyyəsinə əsaslanır [Cəfərov, 2019, s.64]. Fəzilətli dövlət kamilliyə aparan məqsədlərlə idarə olunursa, cahil və azğın dövlətlər maddi maraqlar, yanlış inanclar və qeyri-əxlaqi məqsədlər üzərində qurulmuş formal birliklərdir. Fasiq dövlət isə mahiyyətcə doğru prinsipləri bilib, lakin onlardan şüurlu şəkildə uzaqlaşan idarəetmə modelidir. Bu təsnifat göstərir ki, Farabinin siyasi sistemi təkcə hüquqi və iqtisadi yox, həm də metafizik-etik ölçülərdən ibarət çoxqatlı konsepsiyadır.

**3.Ağıl–vəhy sintezi və peyğəmbər-filosof modeli**

Əl-Farabi idrakın mahiyyətini şərh edərkən onu iki əsas pilləyə ayırır: rasional idrak (əl-əql) və intuitiv-idraki forma olan vəhy (əl-vəhy). Farabinin idrak nəzəriyyəsində ağıl empirik müşahidə və məntiqi təhlil vasitəsilə əldə olunan bilik forması kimi təqdim edilir. Bu idrak mərhələsi Aristotelin məntiqi ənənəsi ilə sıx bağlıdır. Digər pillə – intuisiya və ya vəhy – isə adi rasional prosesləri aşan, daha yüksək idraki səviyyəni ifadə edən transsendent biliyi bildirir. Nasrın qeyd etdiyi kimi, Farabi vəhyi rasional biliklə ziddiyyət təşkil edən deyil, əksinə, onun tamamlayıcı mərhələsi kimi dəyərləndirir [Nasr, 2006, s.88]. Bu, İslam fəlsəfəsində ağıl-vəhy münasibətinin harmonik şəkildə izahına gətirib çıxarır.

Farabiyə görə, ağıl və vəhy eyni həqiqəti fərqli yollarla dərk edir: ağıl mərhələli təhlil və məntiqi nəticə ilə, vəhy isə birbaşa, intuisiya formasında həqiqətə nüfuz edir. Bu yanaşma epistemoloji paralelliyi təmin edir və dini biliklə fəlsəfi bilik arasında sistemli körpü yaradır.

Bu cütlüyün ən yüksək forması "peyğəmbər-filosof" modelində təcəssüm edir. Farabi qeyd edir ki, filosofda rasional bacarıq üstünlük təşkil edirsə, peyğəmbərdə ilahi ilham (vəhy) hakimdir. Lakin hər iki idrak növü eyni insanda birləşdikdə, bu şəxs öz mahiyyəti etibarilə həm metafizik həqiqətləri dərk edən, həm də onları cəmiyyətə ötürmək gücünə malik olan ən kamil varlıqdır [Fakhry, 2004, s.120]. Beləliklə, "peyğəmbər-filosof" həm bilik, həm ilahi hikmət, həm də siyasi-mənəvi rəhbərlik funksiyalarını özündə cəmləşdirən nadir lider modelidir.

Farabinin təsvir etdiyi ideal rəhbər sadəcə idarə edən siyasi fiqur deyil; o, cəmiyyətin mənəvi, əxlaqi və sosial inkişafını təmin edən kompleks liderdir. Onun funksiyaları dörd əsas istiqamətdə cəmlənir:

- Ağılla dərk olunan həqiqətlərin vəhy ilə təsdiqi: Bu, iki idrak formasının uyumunu təmin edir və rəhbərin həm rasional, həm də ilahi legitimliyini gücləndirir.
- Cəmiyyəti mənəvi və sosial tərəqqiyə aparmaq: Rəhbər yalnız maddi inkişafı deyil, vətəndaşların əxlaqi kamilliyini də prioritet hesab edir; bu isə Farabinin fəzilətli şəhər konsepsiyasının əsas şərtidir.
- Ədalət və mərhəmət prinsiplərini hakimiyyətin merkezinə yerləşdirmək: Ədalət Farabiyə görə dövlətin varlıq səbəbi, mərhəmət isə onun davamlılığının təminatıdır. Bu iki prinsip olmadan cəmiyyət nə nizam qura, nə də inkişaf edə bilər.
- Cəmiyyətdə nizamın qorunması və zülmün aradan qaldırılması: Rəhbər sosial ədalətsizliklərin qarşısını alan, harmoniyanı bərqərar edən və dövlətin fəlsəfi məqsədini – insanın kamilləşməsini – reallaşdıran əsas qüvvədir [Əl-Farabi, 1995, s.61].

Farabinin "peyğəmbər-filosof" modeli həm siyasi fəlsəfə, həm idrak nəzəriyyəsi, həm də əxlaq sisteminin kəsişməsində duran universaldır. O, liderlik institutunu metafizik, idraki və sosial aspektlərdən izah edir və bu model vasitəsilə həm ideal dövlətin strukturunu, həm də ideal rəhbərin psixoloji, intelektual və mənəvi xüsusiyyətlərini sistemləşdirir.

Əl-Farabi ideal rəhbərin – yəni "peyğəmbər-filosof" un – malik olmalı olduğu on iki əsas xüsusiyyəti sadalayaraq, dövlət rəhbərliyini sırf idarəetmə bacarığı deyil, həm də mənəvi-intellektual kamillik məsələsi kimi şərh edir [Əl-Farabi, 1995, s.64]. Bu xüsusiyyətlərin hər biri həm fərdi əxlaqı, həm kognitiv qabiliyyətləri, həm də liderin sosial məsuliyyətini müəyyənləşdirir və birlikdə ideal hakimiyyət modelinin strukturunu formalaşdırır.

Farabi tərəfindən qeyd edilən xüsusiyyətlər aşağıdakı kimi qruplaşdırıla bilər:

**1.** İntelektual-rasional keyfiyyətlər. Bu kateqoriyaya daxil olan xüsusiyyətlər rəhbərin düşüncə qabiliyyətini, analitik təfəkkürünü və idrak potensialını müəyyənləşdirir:

- Kamal dərəcəsində ağıl – Farabi üçün siyasi hakimiyyətin əsası rasional düşüncədir; çünki dövlətin məqsədi və idarəetmə prinsipləri məhz ağıl vasitəsilə müəyyən olunur.
- Güclü yaddaş – biliklərin davamlı istifadəsi və intelektual ardıcıllığın təmin olunması üçün vacibdir.
- Elmə sevgi və təfəkkür gücü – rəhbərin bilik axtarışında daim inkişaf etməsini şərtləndirir.
- Müdriklik – biliklə təcrübənin sintezini ifadə edir və qərarların rasional-etik əsasını formalaşdırır.

Bu xüsusiyyətlər ideal rəhbərin yalnız siyasi fiqur deyil, həm də fəlsəfi-idraki lider olduğunu göstərir.

**2.** Etik-mənəvi keyfiyyətlər. Bu qrup rəhbərin əxlaqi mahiyyətini və onun cəmiyyətə mənəvi nümunə funksiyasını müəyyənləşdirir:

- Ədalət və cəsarət – dövlət idarəçiliyində hüquqi balans və sosial tarazlıq üçün əsas şərtdir.
- Mərhəmət və səbir – rəhbərin insanlarla davranışında etik incəlik və psixoloji dayanıqlığı təmin edir.
- Haqqı sevmək və həqiqətə sadiqlik – liderin yalan, fırıldaq və siyasi manipulyasiyalardan uzaq olmasını tələb edir.
- Öz nəfsinə hakim olmaq – şəxsi maraqların dövlət maraqlarına tabe edilməsi, yəni korrupsiyanın və istibdadın qarşısı.

Bu xüsusiyyətlər Farabinin siyasi fəlsəfəsində etik idarəetmə modelinin əsasını təşkil edir.

**3.** Psixoloji və fiziki keyfiyyətlər. Farabi liderliyin yalnız intellektual deyil, həm də psixofiziki hazırlıq tələb etdiyini vurğulayır:

- Bədən və ruh sağlamlığı – dövlət rəhbərinin həm fiziki, həm də psixoloji tarazlıqda olmasının vacibliyini göstərir.

Bu, rəhbərin ağır siyasi qərarlar və ictimai stress qarşısında dayanıqlı olması üçün zəruri hesab olunur.

**4.** Transsendent-idraki keyfiyyət. Bu xüsusiyyət Farabinin siyasi lider modeli ilə metafizik sisteminin əlaqəsini açır:

- İlahi iradəyə itaət – liderin varlığın ən ali məqsədlərinə uyğun hərəkət etməsini təmin edən metafizik prinsip kimi çıxış edir.

Məhz bu sonuncu xüsusiyyət rəhbəri adi filosofdan fərqləndirərək “peyğəmbər-filosof” statusuna yüksəldir [Həsənov, 2018, s.52].

Bu on iki xüsusiyyətin sintezi nəticəsində rəhbər həm ağıl, həm etik həm də ilahi hikmətlə hərəkət edən ideal varlığa çevrilir. Bu model Platonun “filosof-kral” anlayışını aşaraq, onu vəhy və mənəvi kamillik ölçüləri ilə tamamlayır.

**4.Əl-Farabinin fəzilətli şəhər konsepsiyasında ideal rəhbərin konstitutiv rolu**

Əl-Farabi üçün fəzilətli şəhər (əl-mədinətül-fazilə) insan cəmiyyətinin ən kamil formasıdır və onun əsası üç prinsip üzərində qurulur:

- Ədalət – şəhərdə bütün üzvlərin funksiyalarına uyğun şəkildə paylanmış hüquqlar və vəzifələr mövcuddur.
- Mənəviyyat – cəmiyyətin öz-özünü tənzimləməsi yalnız hüquqla deyil, həm də əxlaqi dəyərlərlə mümkün olur.
- Qarşılıqlı yardım – insanların bir-birinin inkişafına töhfə verməsi şəhərin harmoniyasını təmin edir [Gutas, 1998, s.73].

Farabi cəmiyyəti insan bədəninə bənzədərək yazır ki, hər bir üzv öz funksiyasını yerinə yetirməklə ümumi harmoniyaya xidmət edir. Bu analoji model sosial strukturda iyerarxiyanın və əmək bölgüsünün harmoniya yaratdığını göstərir. Burada məqsəd fərdlərin bir-birini tamamlamasıdır; çünki cəmiyyətin tərəqqisi hər kəsin öz yerini düzgün tutmasından asılıdır.

Farabinin ideal rəhbər konsepsiyası və fəzilətli şəhər modeli bir-birindən ayrılmaz fəlsəfi sistem yaradır: ideal rəhbər fəzilətli şəhərin varlıq şərtidir, fəzilətli şəhər isə ideal rəhbərin idraki-əxlaqi prinsiplərinin sosial müstəvidə təcəssümüdür. Bu, Farabinin həm siyasi fəlsəfəsini, həm də insanın kamilliyə yönəlmiş varlıq nəzəriyyəsini bütöv şəkildə anlamağa imkan verir. Fəzilətli şəhərdə rəhbər elə bir sistem yaradır ki, insanlar öz istedadlarını cəmiyyətin xeyrinə yönəldirlər. Bu, həm fərdi, həm də kollektiv səadətin təminatıdır [Əl-Farabi, 1995, s.69].

Farabinin ideal rəhbər modelinin – yəni “peyğəmbər-filosof” un – ən böyük dəyəri ondan ibarətdir ki, bu konsepsiya liderliyi yalnız siyasi güc kimi deyil, həm də etik və intellektual məsuliyyət kimi dəyərləndirir. Onun rəhbərlik prinsipləri – ədalət, bilik, mənəviyyat, xidmət – müasir idarəetmə üçün də aktuallığını qoruyur [Həsənov, 2018, s.54].

Farabi rəhbəri hakimiyyətin sahibi kimi yox, “xalqın xidmətçisi” kimi təqdim edir. Onun fikrincə, rəhbərin əsas məqsədi hakimiyyəti qorumaq və şəxsi nüfuz qazanmaq deyil, cəmiyyətin rifahını və mənəvi inkişafını təmin etməkdir [Nasr, 2006, s.92].

**5.Nəticə**

Müasir sosial və idarəetmə elmlərində geniş yayılmış iki konsepsiya — etik liderlik və transformasional liderlik — Farabinin baxışları ilə ciddi oxşarlıq təşkil edir:

- Etik liderlik — rəhbərin davranışlarının etik prinsiplərə əsaslanması, şəffaflıq və ədalətin idarəetmənin əsasına çevrilməsi;
- Transformasional liderlik — rəhbərin cəmiyyəti mənəvi, psixoloji və sosial baxımdan dəyişdirməsi, insanları öz potensiallarını reallaşdırmağa motivasiya etməsi [Fakhry, 2004, s.126].

Bu nəzəriyyələrin hər ikisində rəhbər yalnız idarəçi deyil, həm də nümunəvi şəxsiyyət, dəyər daşıyıcısı və transformasiya aparıcı qüvvə kimi çıxış edir – bu isə Farabinin peyğəmbər-filosof modelinin mahiyyətidir.

Əl-Farabinin ideal rəhbər obrazı həm rasional biliyə, həm də ilahi hikmətə söykənir. Bu model insanı yalnız sosial inkişaf deyil, həm də mənəvi kamillik istiqamətində aparır. Farabiyə görə belə rəhbər:

- cəmiyyətin mənəvi dayağı və intellektual öndəridir;
- ədaləti və hikməti idarəetmənin əsas prinsipi kimi qəbul edir;
- insanları həm dünyəvi rifaha, həm də axirət səadətinə yönəldir [Əl-Farabi, 1995, s.82].

Bu, liderlik konsepsiyasını təkcə siyasi yox, həm də metafizik səviyyədə əsaslandırır.

Ümumiləşdirilmiş şəkildə, Farabinin siyasi-fəlsəfi sistemi göstərir ki:

- cəmiyyətin mahiyyəti və gələcəyi mənəviyyatla bilik arasındakı balansdan asılıdır;
- bu balansın qorunması isə yalnız yüksək mənəvi-irfani keyfiyyətlərə malik rəhbərliklə mümkündür;
- fəzilətli şəhər modeli müasir dövrdə etik idarəetmənin, sosial ədalətin və mənəvi məsuliyyətin fəlsəfi əsasını təşkil edə bilər [Cəfərov, 2019, s.74].

Beləliklə, Farabinin peyğəmbər-filosof modeli bilik və dəyərin vəhdətini ifadə edən universal liderlik konsepsiyası olaraq müasir siyasi fəlsəfədə də öz aktuallığını qorumaqdadır.

## 6.REFERENCES


**1.** Al-Farabi. (1995). *Al-Madinat al-Fadila (The Virtuous City)*. Beirut: Dar al-Kutub al-Ilmiyyah. (in Arabic)
**2.** Al-Farabi. (1980). *Siyasat al-Madaniyya (Political Regime)*. Cairo: Al-Maktaba al-Azhariyya. (in Arabic)
**3.** Fakhry, M. (2004). *A history of Islamic philosophy*. New York: Columbia University Press. (in English)
**4.** Gutas, D. (1998). *Greek thought, Arabic culture*. London: Routledge. (in English)
**5.** Nasr, S. H. (2006). *Islamic philosophy from its origin to the present*. SUNY Press. (in English)
**6.** Hasanov, E. (2018). *Principles of social justice in Islamic philosophy*. Baku: Elm. (in Azerbaijani)
**7.** Jafarov, A. (2019). *Al-Farabi's political and ethical views*. Baku: ANAS Neshriyyati. (in Azerbaijani)


## ƏDƏBİYYAT


**1.** Əl-Farabi. (1995). *Əl-Mədinətül-Fazilə (Fəzilətli şəhər)*. Beyrut: Dâr əl-Kutub əl-İlmiyyə.
**2.** Əl-Farabi. (1980). *Siyasətül-Mədəniyyə*. Qahirə: Əl-Məktəbətül-Əzhəriyyə.
**3.** Fakhry, M. (2004). *A History of Islamic Philosophy*. New York: Columbia University Press.
**4.** Gutas, D. (1998). *Greek Thought, Arabic Culture*. London: Routledge.
**5.** Nasr, S. H. (2006). *Islamic Philosophy from Its Origin to the Present*. SUNY Press.
**6.** Həsənov, E. (2018). *İslam fəlsəfəsində sosial ədalət prinsipləri*. Bakı: Elm.
**7.** Cəfərov, Ə. (2019). *Əl-Fərabinin siyasi-etik baxışları*. Bakı: AMEA Nəşriyyatı.